**UOT 327**

# Aİ-NİN YENİ QONŞULUQ SİYASƏTİNDƏ POSTSOVET MƏKANI ÖLKƏLƏRİNƏ MÜNASİBƏT: MÖVCUD VƏZİYYƏTİ VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Kamran MƏMMƏDOV***

***Açar sözlər:*** *Cənubi Qafqaz, Aİ, AQS, Azərbaycan, tərəfdaşlıq, enerji siyasəti, postsovet məkanı, Şərq Tərəfdaşlığı proqramı, F.Moqerini, Azad Ticarət Zonası, saziş, geosiyasət, münaqişə, işğal, ikili standartlar, qərəzli münasibət*

Müasir dünyanın geosiyasi xəritəsində sistem xarakterli dəyişikliklər inteqrasiya, qloballaşma və dezinteqrasiya prosesləri nəticəsində baş verməkdədir. Yaranmış vəziyyət beynəlxalq və regional təşkilarlardan, o cümlədən də Avropa İttifaqından sürətlə adaptasiya olunmaq və reaksiya vermək və ciddi dəyişiklikləri həyata keçirməyi tələb edirdi. SSRİ-nin süqutu Avropanın şərqində elə boşluq yaratmışdı ki, bu boşluq çox tezliklə Qərb üçün "qara dəliyə" – potensial təhlükə mənbəyinə çevrilmişdi. Məhz bu təhlükə Aİ-ni yeni layihə və proqramlar üzərində işləməyə vadar etmiş, Yeni Qonşuluq Siyasətindən tutmuş, Şərq tərəfdaşlığına qədər müxtəlif fəaliyyət planları və onların həyata keçirilməsi alətləri yaradılmışdı. Aİ-nin genişlənmə dövrünə daxil olması çox tezliklə onun sıralarının genişlənməsinə gətirib çıxarsa da, üzvlük perspektivləri olmayan bütün qonşularını ittifaqın fəaliyyət proqramlarında iştirak etməyə cəlb etmək məqsədilə fərdi xarakter daşıyan ümumi Fəaliyyət Planları işlənib hazırlanmışdı. Belə fəaliyyət planlarının əhəmiyyətini obyektiv qiymətləndirən ekspertlər Avropa Komissiyasının start verdiyi fəaliyyət planlarının inkişafı və həyata keçirilməsi üçün üç mərhələli prosesin nəzərdə tutulduğuna (16, 171) diqqəti cəlb edirdilər:

- mövcud praktiki çərçivələrdə (Assosiasiya, Tərəfdaşlıq və Əməkdaşlıq sazişləri) dialoq və islahatlardakı nailiyyət və uğursuzluqların təhlil edilərək qiymətləndirilməsi məqsədilə xüsusi Assosiasiya və Əməkdaşlıq komitələrinin təsis edilməsi;
- Komissiya və üzv dövlətlər tərəfindən qonşu dövlətlə əldə olunan razılığa əsasən ümumi məqsədlər və standartların və uğurların əks olunduğu cədvəl hazırlanması, bunun bazasında Fəaliyyət planının Aİ və tərəfdaşlar tərəfindən təsdiq edilməsi;
- tərəfdaş dövlətlərlə mövcud institusional əməkdaşlıq çərçivəsinəinteqrasiyaolunmuş Fəaliyyət planlarının həyata keçirilməsində əldə olunmuş nailiyyətlərin illik yoxlanışının aparılması Aİ-nin artmaqda olan siyasi marağını əks etdirir. Bununla da bu tərəfdaş dövlətlərin hökumətlərinə siyasi və iqtisadi islahatları uğurla başa vurması üçün Aİ tərəfindən kreditlərin verilməsi imkanları da nəzərdə tutulurdu. Qeyd edək ki, Cənubi Avropa və Türkiyənin buraya daxil edilib-edilməməsi məsələsi uzunmüddətli danışıqların mövzusu olmuş, Türkiyə istisna olmaqla qalan dövlətlər birliyin üzvləri sırasına qatılmışdılar. Təsis edilərkən YQS kateqeriyasına aşağıdakı dövlətlər daxil edilmişdi: Rusiya, Moldova, Ukrayna, Misir, Əlcəzair, İsrail, İordaniya, Livan, Liviya, Marakeş, Suriya və Tunis, habelə üç Cənubi Qafqaz ölkəsi: Azərbaycan, Ermənistan və Gürcüstan. Fələstin isə bu sıraya 2004-cü ilin iyununda daxil edilmişdi.

Avropa Komissiyasının «Geniş Avropa-Qonşuluq: Şərqi və Cənubi qonşularımızla münasibətlər üçün yeni çərçivə» adlı Bəyannaməsində (11 mart 2003-cü il) nəzərdə tutulurdu ki, inkişaf zonasını və yaxın qonşuluğu inkişaf etdirmək üçün ittifaq tərəfdaşlığa üstünlük verir. Barselona prosesi çərçivəsində başlanmış dialoqun gedişində Mərakeş, İordaniya, Tunis, Fələstin Muxtariyyəti, daha sonra isə Moldova və Ukrayna ilə fəaliyyət planları işlənib hazırlansa da, bu planların Aİ Şurası tərəfindən təsdiqlənməsi bir sıra amillərin təsiri baxımından yəqin ki xeyli müzakirələri vacib edəcəkdir. Halbuki Aİ Şurası İsraillə bağlı bu işi artıq başa çatdırmaq üzrədir. Komissiyanın sənədində da-

* *Bakı dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dissertantı*
*E-Mail: kamran.c.mammadov@gmail.com*

ha sonra nəzərdə tutulurdu ki, birgə dəyərləri, siyasi və iqtisadi struktur islahatlarının səmərəli şəkildə həyata keçirilməsini əks etdirən konkret irəliləyişlərin əvəzində qonşuluq siyasətinə qatılan dövlətlərə ittifaqın daxili bazarından bəhrələnmək şansları veriləcəkdir (22).

Bütün bunların nəticəsində qonşular azad insani dəyərlərin üstünlüyü şəraitində əmtəə, xidmət və kapitalın sərbəstliyinə nail olmaq üçün ittifaqa daha sıx inteqrasiya olunacaq və liberallaşmanın yaratdığı üstünlüklərə nail olacaqdır. Buna isə aşağıdakı vasitələrlə əldə olunmalıdır:

- daha səmərəli siyasi dialoq və əməkdaşlığa nail olunması;
- ümumi təhlükəsizliyə olanhədələrin qarşısını almaq və mübarizə aparmaq üçün daimi əməkdaşlıq edilməsi;
- münaqişələrin qarşısının alınması və nizamlanması sahəsində daha geniş əməkdaşlıq edilməsi;
- Aİ-nin daxili bazarında səmərəli iştirak etmək və qanunvericilikdəki yaxınlığa əsaslanaraq təşkilatın strukturlarına daha sıx inteqrasiya olunmaq;
- preferensial ticarət əlaqələri və Ümumdünya Ticarət Təşkilatının (ÜTT) prinsiplərinə uyğun olaraq bazarların açıq olması;
- leqal miqrasiya ilə bağlı məsələlərdə sıx əməkdaşlıq edilməsi;
- narkotik vasitələrin qeyri-qanuni alveri, insan alveri və mütəşəkkil cinayətkarlığın qarşısının alınması sahələrində sıx əməkdaşlıq edilməsi;
- təhsil, təlim, elm və mədəniyyət sahələrində sıx əməkdaşlıq və qarşılıqlı anlaşma;
- nəqliyyat, enerji və telekommunikasiya şəbəkələrin, habelə Avropa Tədqiqat Zonasına inteqrasiyanın perspektivləri;
- mükəmməl və təkmil maliyyə yardımlarının edilməsi, investisiyaların təşviqi və qorunması;
- region daxili, subregional və ekstra-regional əməkdaşlığa yardım;
- ətraf mühitin qorunması sahəsində sıx əməkdaşlıq (22).

YQS haqqında Bəyannamədə (2003-cü ilin martında əvvəlcə Yeni Qonşuluq Siyasəti (YQS), az sonra – 2004-cü ilin mayında isə Avropa Qonşuluq Siyasəti (AQS) adını almışdı) yaxın qonşularla inteqrasiyanın genişlənməsində mövcud Tərəfdaşlıq və Əməkdaşlıq Sazişlərini tamamlayan yeni qonşuluq sazişlərinin bağlanacağı qeyd edilirdi ki, bir qədər sonralar meydana gələn Şərq tərəfdaşlığı kimi layihələr buna hesablanmışdı və hazırda reallaşdırılmaqdadır. Məlum olduğu kimi, AQS fərqli coğrafiya, iqtisadiyyat, tarix və mədəniyyət ilə xarakterizə olunan və dünyanın üc kontinentində yerləşən 16 ölkəni əhatə edir ki, belə coğrafiyanın vahid siyasət çərcivəsində birləşdirilməsi iki amillə bağlıdır. Birincisi, tərəfdaş ölkələrin bir cox ortaq təşəbbüslərə (insan azadlıqları, demokratiyanın inkişafı və s.) malik olması Aİ-nin vahid proqram irəli sürməsini mümkün etmişdir. İkincisi, Aİ-nin təməl prinsiplərinə və dəyərlərinə əsaslanmaqla irəli sürdüyü AQS-nin bütün tərəfdaş ölkələrdə tətbiq olunması mümkündür. (15)

Məlum olduğu kimi, Avropa Komissiyasının YQS haqqında Bəyannaməsində Cənubi Qafqaz ölkələrinin bu siyasətə aid edilməsinə münasibət bildirilməmişdi. Bununla belə, 2003-cü il iyunun 16-da 15 Aİ üzv dövlətləri xarici işlər nazirlərinin Lüksemburqdakı görüşündə Cənubi Qafqaz dövlətlərinin gələcəkdə bu siyasətə aid edilməsi məsələsini müzakirə etmək barədə razılığa gəlindi. Az sonra birliyin Ümumi Təhlükəsizlik Strategiyasında Cənubi Qafqazla bağlı Aİ-nin fəaliyyətinin daha da gücləndirilməsi məsələsi öz əksini tapdı. Burada deyilirdi: «Biz Cənubi Qafqazın problemləri ilə daha çox maraqlanmalıyıq, çünki bu region tezliklə Aİ-nin genişlənməsi nəticəsində qonşu regiona çevriləcəkdir». Şuranın 2003-cü il 7 iyul qərarına əsasən Aİ-nin Cənubi Qafqaz regionu üzrə Xüsusi Nümayəndəsi (Aİ XN) vəzifəsi təsis edildi ki, bu vəzifəyə Finlandiya diplomatı Heikki Talvittieni təyin edildi.

Avropa Parlamenti 2003-cü ilin dekabrına qədər davam edən müzakirələrdən sonra Cənubi Qafqaz dövlətlərinin YQS-a qəbul edilməsi haqqında təklif səsləndirdi. Avropa komissiyası isə 2004-cü ilin mayında qəbul etdiyi strateji sənəddə bu təklifi bəyəndi və iyunda isə Cənubi Qafqaz ölkələrinin YQS-a qəbulu rəsmən təsdiqləndi (21). Analitiklərə görə, Cənubi Qafqaz respublikaları-

nın bu qədər gözləməyə vadar edilməsi birincisi, Gürcüstandakı hakimiyyət dəyişikliyi, ikincisi, 2004-cü ilin mayındakı genişlənmədən sonra Rusiyadan edilən reaksiya ilə bağlı olmuşdu. Məlum olduğu kimi 2003-cü ilin sonundakı «məxməri inqilab» nəticəsində Qərbin namizədi Mixael Saakaşvili Gürcüstan prezidenti seçilmişdi.YQS tərəfdaş dövlətlərin Aİ-yə daha da yaxınşması üçün aralıq mərhələ hesab edilirdi. Bu prosesin müddəti və inteqrasiyanın nə qədər uğurlu olacağı ilk növbədə Aİ-yə qoşulmaq arzusunda olan dövlətlərin öhdəsinə qoyulurdu.

Aİ-nin postsovet ölkələri siyasətində Cənubi Qafqazın yerini müəyyən etmək üçün geosiyasi və enerji amilləri ilə yanaşı iki mərhələli siyasi təhlilin aparılması nəzərdə tutulurdu ki, məqsəd ümumiləşdirmə və fərdiləşdirmə aparmaqdan ibarət idi. Nəzərdə tutulurdu ki, birinci mərhələdə region ölkələri ilə Mərkəzi Asiya ölkələrinin müqayisəsi aparılacaq, ikinci mərhələdə isə Aİ-nin Şərqi Avropa ölkələri ilə münasibətləri Cənubi Qafqaz dövlətləri ilə olan münasibətləri ilə müqayisə olunacaq və bunlar arasında oxşar və fərqli cəhətlər müəyyənləşdiriləcəkdi. Qeyd edək ki, postsovet ölkələri içərisində Cənubi Qafqaz regionu Aİ-nin bura nisbətən gec maraq göstərməsinə baxmayaraq yeganə olmasa da, bütün hallarda cənub-şərqə yönəlik maraqlarının içərisində prioritet olmuşdur. (20). Əgər konkret faktlara müraciət etsək, görərik ki, Aİ-nin Qafqazda elə proqramları yoxdur ki, onlar Şərqi Avropa və Mərkəzi Asiya respublikalarından köklü şəkildə fərqlənsin. Bu dövlətlərin hamısı eyni maliyyə yardımı proqramları ilə əhatələnmişdi və ümumi hüquqi bazaya malik idi. TƏS maraqlı olan bütün dövlətlərin hamısına təklif olunmuşdu. Aİ-nin xüsusi proqramları olan TACİS, TEMPUS, TRACECA, İNOGATE kimi proqramlarda Cənubi Qafqaz ölkələri o biri ölkələr kimi eyni səviyyəyə qoyulurdu.

AQS-in mərkəzi elementi isə Aİ ilə hər bir tərəfdaş ölkə arasında razılaşdırılmış və ölkə üzrə bir sıra qısa və orta müddətli prioritetlərin əks olunduğu Fəaliyyət Planlarıdır. Azərbaycan Respublikası – Avropa İttifaqı Fəaliyyət Planı 14 noyabr 2006-cı ilin tarixində Brüsseldə AR-Aİ Əməkdaşlıq Şurasının iclası zamanı qəbul edilmişdir. 7 noyabr 2006-cı ildə Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri J.Barrozu Azərbaycan Respublikası və Avropa Birliyi arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalamışlar. Bu memorandum artıq tərəflər arasında münasibətlərin yeni müstəviyə daxil olmasının göstəricisi sayıla bilər (5, 13). Belə ki, bu anlaşma memorandumunun icrası Azərbaycanın Avropa İttifaqının enerji bazarlarına daha tez inteqrasiyasına kömək etməklə yanaşı, Xəzər hövzəsindən enerji daşıyıcılarının nəqli Avropa İttifaqının enerji təhlükəsizliyini daha da güclənməsinə xidmət edəcəkdir.

Milli siyasətşünaslıqda Aİ-nin Cənubi Qafqaz siyasəti ilə bağlı aparılmış elmi-siyasi araşdırmaların nəticələri göstərir ki, bu qurumun regiona marağı minilliyin əvvəllərindən başlanmışdı ki, bu məsələdə məlum iqtisadi və siyasi amillər mühüm rol oynamış, proses iki mərhələdə getmişdi. Birinci mərhələdə Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının əhatə olunması nəzərdə tutulurdu. Qeyd edək ki, region dövlətlərini birləşdirən başlıca məqam bu dövlətlərin müstəqillik qazandıqdan sonra kiçik zaman fasiləsində Aİ-nin marağını qazanmaları olmuşdur. Cənubi Qafqaz-Mərkəzi Asiya dövlətləri Aİ ilə TƏS çərçivəsində əməkdaşlıq sazişlərini 1995-1996-cı illərdə imzalasa da bunlar eyni vaxtda - 1 iyul 1999-cu ildə qüvvəyə minmişdi (18).

Aİ-nin xarici siyasətində Cənubi Qafqaza münasibət Mərkəzi Asiyaya nisbətən daha böyükdür. Təsadüfi deyildi ki, amerikan politoloqu Z.Bjezinskinin vaxtilə belə bir orjinal fikir səsləndirmişdi: “Rusiyanın nəzarəti altında olmayan ərazilərdən keçən neft kəməri vasitəsilə qərb bazarlarına yol tapan müstəqil Azərbaycan həm də Orta Asiyanın varlı enerji mənbələrinin keçəçəyi böyük magistral yolun mərkəzində durur. Əgər Azərbaycan tamamilə Moskvanın nəzarəti altında olarsa, Orta Asiya dövlətlərinin müstəqilliyini faktiki olaraq mənasız anlam hesab etmək olar”(10, 147). TRASEKA, İNOGATE və s. Aİ layihələrinin elmi-siyasi təhlili göstərir ki, bu layihələrdə Mərkəzi Asiya dövlətləri Cənubi Qafqazla bərabərləşdirilir. Hadisələrin sonrakı gedişi Xəzər hövzəsinə Aİ-yə üzv ölkələrin artan marağının dönərsiz olduğunu göstərmişdi. Rusiyalı mütəxəssislərdən A.Şarova görə, Aİ ölkələrinin postsovet məkanına morağı onların enerjiyə olan ehtiyaclarından qaynaqlanır, çünki, Avropanın enerji ehtiyyatları dünya ehtiyatlarının 0,2 faizindən çox deyil, qaz ehtiyatları isə cəmi 1,4 faizə bərabərdir ki, bunlardan hətta qənaətlə istifadə cəmi 20 ilə bəs edər (13).

Məlum olduğu kimi, hər iki region Böyük İpək yolunun üzərində yerləşdiyi üçün tranzit dəhlizi xarakterindədir, Azərbaycanın zəngin neft-qaz ehtiyatları isə Aİ ölkələri üçün Rusiyaya ciddi alternativdir. Bu baxımdan Cənubi Qafqazda Azərbaycan həm neft-qaz, həm də geostrateji baxımdan Aİ üçün daha maraqlı və əhəmiyyətli hesab edilir. Analoji fikirləri Mərkəzi Asiyada Qazaxıstan və Özbəkistan haqqında demək olar. Hər iki regionda inteqrasiya cəhdlərinə maneçilik edən faktorlar - Cənubi Qafqazda Ermənistan, Mərkəzi Asiyada – Rusiyadır. Lakin Cənubi Qafqaz Aİ-na coğrafi baxımdan daha yaxından, Aİ üçün bu region həm də Mərkəzi Asiyaya giriş qapılarından biri kimi baxıla bilər. Bununla belə, Cənubi Qafqaza nisbətən Mərkəzi Asiyada Aİ-nin fəallığı o qədər də diqqəti cəlb etmir.

Doğrudur, politoloqlar 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra Aİ-nin Mərkəzi Asiyaya xüsusi diqqət verdiyini önə çəkirlər, çünki Mərkəzi Asiya ölkələrinin terror-fundamentalizm mərkəzlərinə yaxınlığı, cinayətkarlıq-narkotik və insan alveri üçün həssas yer olması Aİ-nin regionda fəallığını şərtləndirir. Cənubi Qafqazdan fərqli olaraq Mərkəzi Asiya respublikaları Aİ-ni Rusiya, İran və ABŞ-a baxanda ikinci dərəcəli aktor kimi qəbul edirlər. Cənubi Qafqazda isə vəziyyət xeyli fərqlidir, çünki bu regionun hər üç dövləti xarici siyasətdə Avropa qurumlarına inteqrasiyaya önəm verirlər, bu sahədə Gürcüstanın mövqeyi xüsusilə önəmlidir (17).

Avropa İttifaqının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibəti qonşuluqdakı regionda sabitliyi arzu etməkdən uzağa getmir və münaqişənin ATƏT çərçivəsində həllinə üstünlük verilir. Məlum olduğu kimi, 1992-1993-cü illərdə münaqişə ilə bağlı Avropa İttifaqı bir neçə dəfə qətnamə qəbul etmiş və bəyanat səsləndirmişdi. Aİ-nin rəsmi sənədlərində Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə müdafiə edilir və Dağlıq Qarabağda keçirilən seçkilər pislənirdi. Bu sahədə mühüm sənədlərdən biri 2010-cu il mayın 20-də Avropa Parlamentinin Avropa İttifaqının Cənubi Qafqaz strategiyasına dair qəbul etdiyi 2009/2216 saylı qətnamə hesab edilir. Qətnamədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələlərinə xüsusi yer verilmiş, müharibə zamanı doğma yurdlarından didərgin düşmüş yüz minlərlə qaçqın və məcburi köçkünün pozulmuş insan haqlarından ciddi narahatlıq ifadə olunmuşdu. Qətnamədə Avropa Parlamenti Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan torpaqlarından dərhal çıxması tələb olunur, məcburi köçkünlərin doğma yurdlarına qayıtması zamanı və keçid mərhələsində əhalinin təhlükəsizliyini BMT Nizamnaməsi əsasında təmin etmək üçün həmin ərazilərdə beynəlxalq qüvvələrin yerləşdirilməsinin vacibliyini vurğulanırdı. Sənəddə habelə Ermənistan və Azərbaycan hakimiyyətləri və icmaların rəhbərləri məcburi köçkünlərin geri dönməsinə hazırlıq işləri çərçivəsində etnik münasibətlərin normallaşması üçün səyləri artırmağa çağrılırdı.

Qətnamənin xüsusilə mühüm əhəmiyyətə malik cəhətlərindən biri Ermənistandan silahlı qüvvələrini işğal etdiyi Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən və onun ətrafındakı rayonlardan dərhal çıxarmasının tələb olunmasıdır. Tərəflər münaqişənin beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri və dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyinin vurğulandığı qətnamədə yer alan məsələlərdən biri də Dağlıq Qarabağın hüquqi statusu müəyyənləşdirilənədək ona müvəqqəti statusun verilməsinin qeyd olunmasıdır. Sənəddə göstərilirdi ki, bununla bağlı götürülmüş öhdəliklərin yerinə yetirilməsi bölgənin azərbaycanlı və erməni əhalisinin dinc yanaşı yaşamasına və əməkdaşlığına töhfə verəcəkdir (5, 201-202).

Aİ-nin Cənubi Qafqaz və postsovet məkanının digər ölkələri ilə bağlı siyasəti Şərqi Avropa ölkələrinə bəslənən münasibətdən əsaslı şəkildə fərqlidir, nəzərə alsaq ki, Şərqi Avropanın postsosialist ölkələri 2004-2007-ci illərdə hamılıqla Aİ-nin üzvləri sırasına qəbul olundular, onda fərqli məqamların mahiyyəti aydınlaşar. Məlum olduğu kimi, Cənubi Qafqaz respublikaları, Ukrayna, Moldova və Belarus Aİ-nin "sonuncu eşelonunda" – uzaq perspektivdə yer aldığına görə ötən əsrin 90-cı illərində bu respublikalarla bağlı yalnız ümumi fikirlər səsləndirilirdi. Tədricən Gürcüstan və Ukrayna yeni minilliyin əvvəllərindən etibarən Aİ-nin ciddi diqqət verdiyi ölkələrin sırasına keçdilər.

Qeyd edək ki, Ukrayna Avropa İttifaqı ilə 1994-cü il iyun 16-da TƏS müqaviləsini imzalayan ilk ölkə olmuşdu, o Şərqi Avropada ölkələrindən sonra rəsmi namizədliyi qoyulan və Aİ-nin gələ-

cək üzvləri sırasında dayanan əsas partnyor ölkədir. Aİ Ukraynanı strateji tərəfdaş kimi nəzərdən keçirirdi ki, bu da öz əksini birliyin Ümumi strategiyasında tapmışdı. Belə strateji tərəfdaşlığı zəruri edən faktorlar içərisində xüsusilə Ukrayna ilə sərhəd ərazilərin təhlükəsizliyinin təmin olunması amili öndə dururdu. Polşa və Macanstan Aİ-yə qəbul olunandan sonra birliyin Polşa ilə sərhədləri genişlənərək 677 kv.km-ə çatmışdı (12, 3).

Tədqiqat prosesində toplanmış materialların elmi-siyasi analizi göstərir ki, Aİ-nin Ermənistan istisna olmaqla Cənubi Qafqaz ölkələrinə bəslədiyi münasibət potensial üzv hesab etdiyi Ukraynadan bir sıra səciyyəvi xüsusiyyətləri ilə fərqlənir. Belə ki, Aİ tərəfindən müxtəlif əngəllərin irəli sürüldüyü Türkiyənin birliyə mümkün qəbulundan sonra Aİ bu regionla qonşu olacaqdır, belədə Aİ bu dövlətlərlə strateji tərəfdaş kimi davranmalıdır, halbuki əksinədir. Ümumiyyətlə isə Cənubi Qafqazın Türkiyədən əvvəl birliyin sıralarına inteqrasiyası mümkünsüzdür və bunun yaxın gələcəkdə baş verəcəyi inandırıcı deyildir. Qeyd edək ki, belə müzakirələrin aparılmamasına baxmayaraq Aİ-nin regionla bağlı müxtəlif layihələri maliyələşdirməsi və region ölkələrinə böyük məbləğdə vəsaitlərin yönəldilməsi dumanlı perspektivlər üzərində düşünməyə əsas verən amillərdəndir (2).

Ukraynadan fərqli olaraq Cənubi Qafqaz dövlətlərinə gələcək üzv kimi nəzərdən keçirilməsə də, strateji tərəfdaş kimi münasibət bildirilir. Baxmayaraq ki, Ermənistana münasibətdə bunu demək mümkünsüzdür, həmin ölkə müstəqil səviyyədə siyasət yeritməkdən məhrumdur, öz milli təhlükəsizliyini təmin edə biləcək real potensiala və fəaliyyət kursuna malik deyildir. Rəsmi İrəvanın açarı Rusiyanın əlindədir. Təsadüfi deyil ki, artıq erməni ekspertləri də bu fikri açıq-açığına bəyan edirlər. Belə ki, erməni ekspertlərdən biri yazırdı: "Qərb Ermənistanın öz suverenliyini qoruyub saxladığını dəqiqləşdirmək istəyir. Bu, Rusiya-Türkiyə münasibətlərinin kəskinləşməsi və Rusiyanın Ermənistanda hərbi mövcudluğunu açıqca ifadə etməsi...fonunda özünü daha aydın göstərir"(9).

Avropa İttifaqının xarici məsələlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Federika Moqerininin bu baxımdan Azərbaycana və Ermənistana 2014-cü ilin martında səfərində bir sıra maraqlı məqamlar üzə çıxmışdı. Belə ki, Bakıda "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin ikinci toplantısında iştirak edən və ölkə rəhbərliyi ilə fikir mübadiləsi aparan avropalı diplomat həm Bakıda, həm də İrəvanda Aİ-nin region ölkələri ilə əlaqələrinə aydınlıq gətirmiş və Azərbaycanla əməkdaşlığa xüsusi diqqət yetirildiyini ifadə etmişdi. Bakının Avropanın enerji təhlükəsizliyində ciddi rol oynadığını diqqətə çatdırmış və bu səbəbdən də Azərbaycanla əlaqələrin Brüssel üçün strateji əhəmiyyətli məsələ olduğunu vurğulamışdı. F.Moqerininin Ermənistanda apardığı danışıqlar da əhatəli olmuş, regional təhlükəsizlik məsələləri müzakirə edilərkən “Aİ-nin vassal ölkə axtarmadığını, Avropanın güclü tərəfdaşa ehtiyacının olduğunu” media nümayəndələrinin diqqətinə çatdırmışdı: İrəvana xəbərdarlıq "qeyri-müəyyən müəyyənlik" heç nəyi bildirmir və ya hər şeyi bildirir şəklində ifadə edilmişdi. Belə mesajlar faktiki olaraq Aİ-nin Cənubi Qafqaz siyasətində prioritet məqamları ifadə edir, politoloqlar bunun qlobal miqyasda geosiyasi vəziyyətə təsir edəcəyini proqnozlaşdırırdılar (1).

Ümumiyyətlə, Aİ rəsmisi F.Moqerininin Cənubi Qafqaza səfəri zamanı səsləndirdiyi fikirlər göstərirdi ki, Avropa region istiqamətində yeritdiyi siyasətdə müəyyən düzəlişlər etməkdədir. Aİ Azərbaycanın region üçün əhəmiyyətini nəzərə almaqla Ermənistanın vassal ölkə olmaqdan xilası üçün addımlar atmaqda maraqlı olduğunu diqqətə çatdırırdı. Bununla belə, o da məlumdur ki, Ermənistanın Rusiyadan asılılığına son qoyması demək olar ki, mümkünsüzdür. On illər boyu yeridilən qeyri-müstəqil siyasətin yaratdığı problemlər bir tərəfdən regionun silahlandırılmasına, digər tərəfdən isə potensial müharibələrə imkan yaratmışdır. Amma Aİ-nin Cənubi Qafqazda Azərbaycanla əməkdaşlığa üstünlük verməsi onun hələ “ikili standartlar siyasətindən” əl çəkməsi demək deyildir.

Aİ-nin Cənubi Qafqaz siyasətində Azərbaycanın əhəmiyyətindən bəhs edən F.Moqerini: ""Cənub qaz dəhlizi"nin və Xəzər regionunun bizim əsas prioritetlərimiz sırasında olması açıq-aşkardır" fikrini səsləndirmiş və bu fikir KİV-də çoxsaylı analitik yazıları şərtləndirmişdi(6). Aİ-nin qlobal siyasətdə reallaşdırmaq istədiyi bu konkret siyasi xəttin bir aspekti də Ermənistan-Azərbaycan, Dağ-

lıq Qarabağ münaqişəsinin həlli ilə əlaqəli olmasındadır. Belə ki, F.Moqerini Bakıda olarkən qeyd etmişdi ki, "regionda sabitliyin bərqərar olunması zəruridir və Avropa İttifaqı Cənubi Qafqazda davamlı sülhün qorunmasındakı səyləri davam etdirir"(11). Həmin kontekstdə o, bölgədəki ümumi geosiyasi vəziyyətin, o cümlədən İran, Türkiyə və Rusiyadakı durumun Azərbaycan rəhbərliyi ilə müzakirə edildiyini, Ermənistana münasibətdə isə: "bizə vassal gərək deyil, bizə tərəfdaş, həm də güclü tərəfdaş lazımdır" fikrini qeyd etmişdi (14).

Postsovet məkanı ölkələri içərisində ərazisi sesessionist münaqişə yolu ilə parçalanan dövlətlərdən biri də Moldovadır. Onun Aİ ilə əməkdaşlığı strateji tərəfdaşlıq xarakteri daşımır, bu ölkə birliklə ticarət sahəsində əməkdaşlıq edir. Belə ki, Moldova Aİ ilə Azad Ticarət Zonasına doğru hərəkət etməklə ittifaq üçün ticarət partnyoru rolunu ifa edir. Halbuki, Aİ son zamanlaradək Cənubi Qafqaz ölkələrinə münasibətdə onların iqtisadi zəifliyinə görə, bu respublikalara ticarət tərəfdaşları kimi baxılmırdı. Moldovadan fərqli olaraq Cənubi Qafqaz ölkələri ilə tərəfdaşlıq sazişlərinin heç birində Moldovadakı kimi, Azad Ticarət Zonası haqqında qeyd yoxdur, baxmayaraq ki, Moldovanın iqtisadi göstəriciləri daha aşağıdır (23).

Belarus Respublikası ilə Aİ arasında qarşılıqlı münasibətlər kifayət qədər problemlidir ki, bu ilk növbədə Rusiya amili ilə bağlıdır. Ukrayna və Moldova ilə müqayisədə Aİ-nin Belarusla strateji tərəfdaşlıq və ya Azad Ticarət Zonası qurmaq məsələsi gündəmdə deyildir. Məlum olduğu kimi Belorus dövləti MDB-nin fəal üzvü və KTM-in iştirakçısıdır. Rusiyanın strateji tərəfdaşı olan Belarus Ermənistan və digər dövlətlərlə birlikdə Avrasiya İqtisadi Birliyinin üzvüdür və əslində bununla da Avropa ilə Rusiya arasında tutarlı bir maneə yaradılmışdır. Aİ rəsmi olaraq Belarusda 2001-ci il parlament seçkilərini və A.Lukaşenkonun yenidən Respublika prezidenti seçilməsini qəbul etməmişdir. Buna baxmayaraq Aİ Belarusla YQS çərçivəsində əməkdaşlıq edib ölkədə demokratikləşmə prosesinə təsir etməyə çalışsa da, istədiyi nəticəni əldə edə bilməmişdir, bununla belə Aİ Belarusda siyasi sabitliyin saxlanılmasında xüsusilə maraqlıdır (12, 6-7, 9).

Azərbaycan Respublikası Avropa İttifaqı ilə əməkdaşlığında "Şərq Tərəfdaşlığı"(ŞT) proqramı da mühüm əhəmiyyətə malikdir. Polşa və İsveçin təklifi ilə təsis edilən "Şərq Tərəfdaşlığı"nda məqsəd proqramı əhatə edən dövlətləri Avropa İttifaqına daha da yaxınlaşdırmaq, sabitlik, demokratik idarəçiliyə və iqtisadi inkişafa təşviq etməkdir. Bu təşəbbüs demokratiya, qanunun aliliyi, insan hüquqlarına və əsas azadlıqlara hörmət, bazar iqtisadiyyatı və davamlı inkişaf kimi ümumi dəyərlərə əsaslanır. Proqramın əsası 2009-cu ildə Praqada qoyulmuşdur. Bu, Avropa İttifaqı və altı tərəfdaş ölkə (Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Moldova və Ukrayna) ilə münasibətlərin gücləndirilməsi üçün yeni təşəbbüsdür. Layihə ilə bağlı təşkilati işlər görüldükdən sonra "Şərq tərəfdaşlığı" sammiti ilk dəfə 2009-cu ilin mayında Çexiyanın paytaxtı Praqada keçirilmiş, ikincisi isə 2011-ci ilin sentyabrında Varşavada təşkil edilmiş, Litvanın paytaxtı Vilnüsdə keçirilən III sammit isə mühüm nəticələrlə yol açmışdı. "Şərq tərəfdaşlığı" Avropa İttifaqının qonşuluq siyasəti çərçivəsində postsovet məkanı dövlətləri ilə əlaqə və əməkdaşlığın daha da yaxşılaşdırılmasına yönəlmiş təşəbbüsüdür (7).

Avropa Komissiyasının Prezidenti J.Barrozonun 2011-ci il yanvar 13-14-də Azərbaycana rəsmi səfəri və səfər çərçivəsində 4 sənədin imzalanması ikitərəfli əməkdaşlığın inkişafında yeni mərhələnin başlanğıcı kimi şərh edilir. J.Borrozonun səfər dövründə Azərbaycan hakimiyyəti və ictimaiyyətinin müxtəlif nümayəndələri ilə görüşləri ona respublikamızda həyata keçirilən islahatları izləməyə imkan vermişdi. Azərbaycan Prezidenti İ.Əliyev respublikamızın qısa zaman kəsiyində keçdiyi inkişaf yolunu səciyyələndirərək demişdi: "Bu gün nəhəng neft və qaz ehtiyatları, müasir infrastruktur, boru kəmərləri və önəmli məkanda yerləşən Azərbaycan regional enerji təhlükəsizliyi və Avropanın enerji təhlükəsizliyində mühüm rolunu davam etdirir. Avropa Azərbaycanın böyük tərəfdaşıdır. Çoxşaxəli əməkdaşlıq demək olar ki, bütün mühüm sahələrdə inkişaf etməkdədir"(6). Hazırda Aİ ölkələrinin Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində payı təxminən 30 faizi keçmişdi ki, bu baxımdan birlik ölkəmizin əsas ticarət tərəfdaşına çevrilmişdır (4).

Aparılmış elmi-politoloji təhlil göstərir ki, vaxtilə Cənubi Qafqaza daha az əhəmiyyət verən Aİ hazırda bu regiona postsovet ölkələri içərisində mühüm iqtisadi və siyasi məkanı kimi yanaşma sərgiləyir. Son olaraq qeyd edək ki, Azərbaycan Prezidenti İ.Əliyev "Cənub qaz dəhlizi"nin iştirakçısı olan ölkələrin təmsilçilərinin toplantısında Qərb dünyası ilə əməkdaşlığa xüsusi diqqət verildiyini vurğulayaraq demişdi: "Biz bütövlükdə Qərblə münasibətlərin yeni səviyyəyə yüksəlməsinin şahidi oluruq. Şübhəsiz ki, bunların tam reallaşması üçün Qərbin ilk növbədə ikili standartlardan imtina etməsi lazımdır. Azərbaycan tərəfi öz səmimi sözünü deyib. İndi növbə Qərbindir (3).

Halbuki ölkəmizin davamlı inkişafı, demokratik və hüquqi islahatların dönmədən həyata keçirilməsi, respublikamızın iqtisadi yüksəlişi Avropa institutları tərəfindən təqdir edilməli olduğu halda, praktikada, xüsusilə, 2009-cu ildən etibarən bunun əksi müşahidə edilməkdədir. Bu baxımdan Avropa Parlamentinin Azərbaycana dair 2015-ci il sentyabrın 10-da qəbul etdiyi 2915/2840 (RSP) saylı qərəzli qətnaməsi bu parlament təşkilatında ölkəmizə qarşı sistemli və davamlı şəkildə aparılan qarayaxma kampaniyasının son dərəcə kəskin xarakter aldığını göstərir. Milli mətbuat yazırdı ki, Türkiyəyə qarşı ənənəvi xarakter almış insan hüquqlarının pozulması bəhanəsi altında indi də Azərbaycanda xalq tərəfindən dəstəklənən siyasi hakimiyyətə şər və böhtan atılmış, ölkəmizlə Avropa İttifaqı və onun üzvü olan dövlətlər arasında inkişaf edən tərəfdaşlıq münasibətlərini sarsıtmağa, Azərbaycanın beynəlxalq nüfuzuna xələl gətirərək, onu dünyaya inteqrasiya prosesindən təcrid etməyə uğursuz cəhd göstərilmişdir (8; 19). Hazırda da davam etməkdə olan belə cəhdlərə Azərbaycan xalqı öz monolitliyi ilə cavab verməli, davamlı siyasi və iqtisadi inkişaf yolundan çıxmamalıdır.

## ƏDƏBİYYAT

1. Aİ-nin Cənubi Qafqaz siyasəti: vassal ölkə ilə güclü tərəfdaş arasındakı fərq //http://newtimes.az/az/geopolitics /4304/
2. Avropa Azərbaycan Cəmiyyətinin yaradılmasının 10 illik yubileyi qeyd edilib // Respublika qəz., 2016, 17 mart
3. Azərbaycan-Aİ əməkdaşlığı: rəsmi Bakının sabit mövqeyi // Azərbaycan qəz., 2016, 9 mart
4. Azərbaycan Respublikası və Avropa İttifaqı arasında iqtisadi əlaqələr // İki sahil qəz., 2013, 21 noyabr
5. Bakı-Brüssel. Azərbaycan-Avropa İttifaqı münasibətləri. B.: 2011, s. 13
6. Bakıda "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısı keçirilib / Azərtac, 2016, 29 fevral
7. Hacaliyev E. III «Şərq tərəfdaşlığı» Sammiti: nəticələr və perspektivlər //Azərbaycan qəz., 2013, 1 dekabr
8. Milli Məclis Avropa Parlamentinin bədnam və qərəzli qətnaməsinə etiraz etdi // Azərbaycan qəz., 2015, 14 sentyabr
9. Айрумян Н. Евросоюз хочет уточнить, является ли Армения суверенной / "Lragir.am", 2006, 29 февраля
10. Бжезинский Зб. Великая шахматная доска. М.: Международные отношения, 1999, 256 с.
11. Могерини: партнёрство ЕС с Арменией положительно скажется на всем регионе / "Regnum", 2016, 1 марта
12. Сообщение Европейской Комиссиидля Европейского Парламента и Европейского Совета. Восточное партнерство, Брюссель, 2008, 18 s.
13. Шаров Р. Россия-ЕС: партнерство должно быть взаимным // Парламентская газета, 2008, 11 ноября
14. Returning from Azerbaijan and Armenia / "Federicamogherini.net", 2 mart 2016

15. Communication from the Commission to the Council and the European Parliament on Strengthening the European Neighbourhood Policy, Comission of the European Communities, Brussels, 2006, 4 december

16. South Caucasus: a Challenge for the ELT', p. 171

17. The EU-Gcorgia rclations, official wcb sitc http://curopa.eu.inl/comm/external-rclations/georgia/ intro/indcx/lıtm

18. http://aci.pitt.edu/archive/00O01606/0 l/chai65e.pdf səh. 171 -172

19. http://www.azerbaijan-news.az/index.php?mod=3&id=78103

20. http://www.eu.int/comm/extcrnalrelations/cccca/pca/indcx.htni.

21. http://www.cacianalyst.org/view-article.php?articleid=2527

22. http://www.curactiv.coin/Articlc?tcmuri=tcm:2911 Hf^-lfxfctype^LinksDossicr

23. www.boell.de/downloads/aussen/E_N_P_smk.pdf

## *XÜLASƏ*

***Kamran MƏMMƏDOV***

### *Aİ-nin yeni qonşuluq siyasətində postsovet məkanı ölkələrinə münasibət: mövcud vəziyyəti və inkişaf istiqamətləri*

***Açar sözlər:*** *Cənubi Qafqaz, Aİ, AQS, Azərbaycan, tərəfdaşlıq, enerji siyasəti, postsovet məkanı, Şərq Tərəfdaşlığı proqramı, F.Moqerini, Azad Ticarət Zonası, saziş, geosiyasət, münaqişə, işğal, ikili standartlar, qərəzli münasibət*

Müasir dövrdə dünyanın geosiyasi xəritəsində sistem xarakterli dəyişikliklər inteqrasiya, qloballaşma və dezinteqrasiya prosesləri nəticəsində formalaşmışdır. Yaranmış vəziyyət beynəlxalq və regional təşkilarlardan, o cümlədən də Avropa İttifaqından sürətlə adaptasiya olunmaq və reaksiya vermək və ciddi dəyişiklikləri həyata keçirməyi tələb edirdi. Aİ-nin postsovet ölkələri siyasətində Cənubi Qafqaz və Mərkəzi Asiya respublikalarının yeri onların geosiyasi əhəmiyyəti və enerji amilləri ilə bağlıdır ki, bu Aİ-nin öz fəaliyyətini mərhələli şəkildə qurmasını şərtləndirmişdi. Məqsəd ümumiləşdirmə və fərdiləşdirmə aparmaq yolu ilə qurumun fəaliyyət istiqamətlərini müəyyənləşdirmək idi. Milli siyasətşünaslıqda Aİ-nin Cənubi Qafqaz siyasəti ilə bağlı aparılmış elmi-siyasi araşdırmaların nəticələri göstərir ki, bu qurumun regiona marağı minilliyin əvvəllərindən başlanmışdı ki, bu qeyd edilən amillərin təsiri ilə bağlı olmuşdur. Aİ-nin xarici siyasətində Cənubi Qafqaza münasibət Mərkəzi Asiyaya nisbətən daha böyükdür. Müəllif postsovet məkanının Belorus, Ukrayna, Moldova, Gürcüstan, Ermənistan kimi dövlətlərinə Aİ-nin fərqli münasibətinə də aydınlıq gətirmişdir.

Məqalədə Azərbaycan-Aİ əməkdaşlığını əngəlləyən amillərin də mahiyyətinə aydınlıq gətirilir, ölkəmizin davamlı inkişafı, demokratik və hüquqi islahatların dönmədən həyata keçirilməsi və respublikamızın iqtisadi yüksəlişini qəbul etmək istəməyən qüvvələrin yerləşdiyi Avropa institutları tərəfindən belə inkişafın təqdir edilməli olduğu halda ölkəmizə qərəzli münasibət göstərildiyi qeyd edilir. Praktikada xüsusilə 2009-cu ildən etibarən belə qurumların anti-Azərbaycan fəaliyyəti özünü bir sıra sənədlərin qəbulunda göstərməkdədir. Bu baxımdan Avropa Parlamentinin Azərbaycana dair 2015-ci il sentyabrın 10-da qəbul etdiyi 2915/2840 (RSP) saylı qərəzli qətnaməsi bu parlament təşkilatında ölkəmizə qarşı sistemli və davamlı şəkildə aparılan qarayaxma kampaniyasının son dərəcə kəskin xarakter aldığını göstərir və xalqımız belə fitnələrə uymamağa çağrılır.

## *РЕЗЮМЕ*

***Камран МАМЕДОВ***

### *Отношение к постсоветским странам в политике нового соседства ЕС: текущая ситуация и направления развития*

***Ключевые слова:*** *Южный Кавказ, ЕС, ЕПС, Азербайджан, партнерство, энергетическая политика, постсоветское пространство, программа Восточного партнерства, Ф. Могерини, Зона свободной торговли, соглашение, геополитика, конфликт, оккупация, двойные стандарты, предвзятость*

В наше время системные изменения геополитической карты мира сформировались в результате процессов интеграции, глобализации и дезинтеграции. Сложившаяся ситуация потребовала от международных и региональных организаций, в том числе Европейского Союза, адаптироваться, быстро отреагировать и внести существенные изменения. Место республик Южного Кавказа и Центральной Азии в постсоветской политике ЕС обусловлено их геополитическим значением и энергетическими факторами, которые побудили ЕС постепенно наращивать свою деятельность. Цель состоит в том, чтобы управлять учреждением посредством обобщения и индивидуализации. было определить направления. Результаты научных и политических исследований политики ЕС на Южном Кавказе в национальной политологии показывают, что интерес этой организации к региону возник в начале тысячелетия из-за влияния этих факторов. Во внешней политике ЕС отношение к Южному Кавказу больше, чем к Центральной Азии. Автор также разъяснил разное отношение ЕС к постсоветским странам, таким как Беларусь, Украина, Молдова, Грузия и Армения.

В статье также разъясняются препятствия на пути сотрудничества между Азербайджаном и ЕС, устойчивого развития страны, неуклонного осуществления демократических и правовых реформ и предвзятости европейских институтов, что должно быть одобрено европейскими институтами, которые не хотят мириться с экономическим ростом страны. На практике, особенно с 2009 года, антиазербайджанская деятельность таких организаций нашла отражение в принятии ряда документов. В этой связи пристрастная резолюция Европарламента по Азербайджану № 2915/2840 (RSP), принятая 10 сентября 2015 года, показывает, что систематическая и непрерывная клеветническая кампания против нашей страны в этой парламентской организации является чрезвычайно острой и наш народ называется не соблюдать такие провокации.



## *SUMMARY*

***Kamran MAMMADOV***

### *Attitude Toward Post-Soviet countries in the New Neighborhood Policy of the EU: current situation and development course*

***Keywords:*** *South Caucasus, the EU, ENP, Azerbaijan, partnership, energy policy, the post-Soviet space, the Eastern Partnership program, F. Federica Mogherini, the free trade zone agreement, geopolitics, conflict, occupation, double standards, bias*

In our time, the system changes in the geopolitical map of the world were formed as a result of integration, globalization and disintegration. The situation demanded that the international and regional organizations, including the EU, to adapt, to respond quickly and make significant changes. Place the republics of the South Caucasus and Central Asia in the post-Soviet policy of the EU due

to their geopolitical importance and energy factors, which prompted the EU to gradually increase their activity. The goal is to manage the institution through the generalization and individualization. It was to determine the direction. The results of scientific research and the political policy of the EU in the South Caucasus in the national political science show that the interest of the organization came to the region at the beginning of the millennium due to the influence of these factors. In foreign policy of the EU the South Caucasus is more important than Central Asia. The author also explains the different attitudes to the EU in post-Soviet countries such as Belarus, Ukraine, Moldova, Georgia and Armenia.

The article also explains the obstacles to cooperation between Azerbaijan and the EU, the country's sustainable development, the steady implementation of democratic and legal reforms and the bias of the European institutions, which must be approved by the European institutions that do not want to put up with the economic growth of the country. In practice, especially since 2009, anti-Azerbaijan activity of such organizations is reflected in the adoption of a number of documents. In this context, biased resolution of the European Parliament on Azerbaijan № 2915/2840 (RSP), adopted on 10 September 2015, shows that the systematic and continuous smear campaign against our country in this parliamentary organization is extremely acute, and our people are called not to comply with such provocations.